Qız: - Doğrudan?

Ər: - Əlbəttə, doğrudan. Nə oldu sənə birdənbirə. Dur, gəl gedək, əl-üzünü yuyaq.

Qızı ayağa qaldırır, hamama aparır. Hamamın qapısı onların arxasınca bağlanır. Bir neçə saniyə sonra biz onları yenə də divanda oturan görürük.

Qız: - Bilirsən, əzizim?

Ər: - Nəyi bilirəm.

Qız: - Bizim uşağımız olacaq və mən ona ananın adını qoyacam.

Ər: - Canım mənim. Olacaqmı uşağımız?

Qız: - Əlbəttə ki, olacaq. Mən buna elə inanıram ki...

Ər: - İnanırsansa, olacaq mütləq!

Qız: - Gəl, qucaqlayım səni.

Əri onu qucaqlayır, çiyninin üstündən isə sol əlində olan telefonu söndürür.

## Ər və təzə sevgilinin görüşü

Oğlan küçədə gəzə-gəzə gəlib bir kafeyə girir. Çantasından notbukunu çıxardıb stolun üstünə qoyur, yaxınlaşan ofisianta qəhvə sifariş verir. Birdən başını qaldırıb Gülnarı başqa bir kişi ilə oturan görür. Stolun üstündən kişi ilə əl-ələ tutublar. Bu anda qəhvə gəlir. Ofisiantın nə dediyini oğlan eşitmir. Yerini dəyişib arxası qıza oturur. Oğlanın telefonuna mesaj düşür: "Skaypa gəl". Oğlan siqaret yandırıb bilgisayardan skaypı açır. Əlləri də yüngülcə əsir. Cibindən qulaqlığını çıxardıb taxır. Qız mətbəxdə oturub.

Qız: - Hardasan sən?

Oğlan: - Kafedə.

Qız: - Nə yaxşı...

Oğlan: - Evdə yazmağa həvəs olmur. Burda yazıram.

Qız: - Hə, okey. Səni narahat etməyim.

Oğlan: - Mən elə bilirdim ki, biz bir də danışmayacağıq.

Qız: - Elə mən də onu deyirdim.

Oğlan: - Nəyi deyirdin?

Qız: - Sənin niyə kefin yoxdu?

Oğlan: - Nəsə yazmaq istəyəndə həmişə elə olur.

Qız: - Düzünü de.

Oğlan: - Düzünü dedim.

Qız: - Hə, nəsə. Deyəcəkdim ki, hər şeyi olduğu yerdə buraxaq. Bilirsən səninlə danışmaq mənim üçün necə çətindi?! Pis başa düşmə, gözəldi əslində. Lakin mən səninlə danışandan sonra yenə onu görürəm axı. Alışa bilmirəm bu ikili həyata. O, sən, o sən, o sən... Bircə onu bil ki, mənim ən gözəl günlərim səninlə keçən günlərimdi.

Oğlan susur. Stolun üstündən siqaret götürüb alışqanla yandırmaq istəyir. Alışqan yerə düşür. Əyilib götürür.

Qız: - Dayan, dayan, o arxandakı kimdi?

Oğlan: - Nə bilim, kimdi? Müştəridi də.

Qız: - Yox, e, o qızla oturanı deyirəm.

Oğlan: - Bilmirəm. Tanımıram. Bəlkə gedib pasportuna baxım?

Qız: - Yox, yox. Xahiş edirəm səndən. Onu mənə yaxınlaşdır da.

Oğlan: - Necə yaxınlaşdırım?

Qız: - Telefonunu çıxart, elə elə ki, guya selfie çəkirsən. Selfie çək, amma onun üzü də düşsün.

Oğlan: - Kimdi axı o adam?

Qız: - Rəfiqəmin nişanlısına oxşatdım.

Oğlan: - Yaxşı, eləyərəm.

Oğlan stolun üstündəki telefonunu götürüb selfie çəkir. Amma telefonu daha da yuxarıya qaldırır. Kişinin üzü ekranda görünür. Şəkli çəkib qıza atır.

Oğlan: - Aldın?

Qız əlindəki telefona bax-baxa, "hə, çox sağ ol" - deyir.

Oğlan: - Dediyin adamdı? Neyləyəcəksən indi bunu?

Qız: - Yox, o deyilmiş. Oxşatmışam. Yazığın günahını aldım. Çox sağ ol. Hər şey üçün!

Oğlan cibindən beş manatlıq çıxardıb stola qoyur. Çantasını da götürüb kafedən çıxır. Çöldə bir siqaret yandırıb bir anlığa içəridə qıza baxır. Sonra sürətli addımlarla uzaqlaşır. Qarşıdan bir-birinin qoluna girmiş yaşlı və nəyəsə ucadan gülən ər və arvad gəlir. Oğlan səkidə onlara yol verir. Onlar keçdikdən sonra da uzun-uzun onların arxasınca baxır.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 18 fevral.- S. 5.**